Azərbaycan Respublikasının hüdudlarından kənarda səsvermə təşkil edildiyi hallarda səsvermə hüququna malik şəxsləri seçici siyahılarına daxil etməli olan seçki dairələrinin müəyyən edilməsinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# **Q Ə R A R I**

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 29.2-ci maddəsinə və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının "Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikası Prezidentinin seçkilərinin və referendumun təşkili haqqında Təlimat"ına əsasən, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan seçicilər həmin Məcəllənin 47.4-cü maddəsinin tələbləri nəzərə alınmaqla seçki dairələri üzrə seçici siyahılarına daxil edilirlər. Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşayan, yaxud uzunmüddətli xarici ezamiyyətdə olan və Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərində və konsul idarələrində qeydə alınmış seçicilərin sayı haqqında məlumatları Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi təqdim edir. Mərkəzi Seçki Komissiyası həmin məlumatlar əsasında prezident seçkiləri və referendumda göstərilən seçicilərin siyahıya alınması üçün müvafiq seçki dairələrinin siyahılarını təsdiq edir.

Ona görə də Azərbaycan Respublikasının hüdudlarından kənarda səsvermə təşkil edildiyi hallarda seçicilərin sayı və təmsilçilik norması əsas götürülməklə, bu fəaliyyəti həyata keçirməli olan seçki dairələri müəyyən edilməli, Mərkəzi Seçki Komissiyasının oxşar münasibətləri hissəvi tənzimləyən müvafiq qərarı isə qüvvədən düşmüş hesab edilməlidir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 29.2-ci, 35.6-cı və 47.4-cü maddələrinə əsasən **q ə r a r a  a l ı r :**

1. Azərbaycan Respublikasının hüdudlarından kənarda səsvermə təşkil edildiyi hallarda, müvafiq seçki dairələri üzrə seçicilərin sayı və təmsilçilik norması əsas götürülərək, səsvermə hüququna malik şəxsləri seçici siyahılarına daxil etməli olan aşağıdakı seçki dairələri müəyyən edisin:

15 saylı Yasamal birinci
16 saylı Yasamal ikinci
17 saylı Yasamal üçüncü

2. Mərkəzi Seçki Komissiyasının oxşar münasibətləri tənzimləyən 30 iyun 2003-cü il tarixli 5/32 saylı Qərarı qüvvədən düşmüş hesab edilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |